# Tariximizdə 2020-ci ilin 27 sentyabr günü - Vətən müharibəsi necə başladı...

**27 sentyabr 2020-ci il Vətən tarixində yeni bir səhfə açdı. 27 sentyabrda xalqımızın qürur və şərəf tarixinə silinməz səhifələr yazan Vətən müharibəsi başladı. Zəfər tariximizin başlanğıc nöqtəsi olan 27 sentyabrdan 2 il ötür. Vətən müharibəsi xalqımızın mübarizə əzmini daha geniş şəkildə ifadə etdi və birliyinin simvoluna çevrildi.**

Vətən daşı olmayandan
Olmaz ölkə vətəndaşı!

Vətən müharibəsində kiçikdən tutmuş böyüyə qədər hər kəs Vətən daşına çevirildi. Məlum olduğu kimi, Ermənistanın ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, müzəffər Ordumuz işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. Şəhidlərimizin canı, qazilərimizin sağlamlığını itirməsi hesabıba tprpaqlarımızı azad edib Zəfər qazandıq. 2020-ci ilin 27 sentyabr tarixini necə xatırlayırsınız? Vətən müharibəsinin başlandığı xəbərini eşidəndə ilk olaraq nə düşündünüz? İnanırdınızmı ki, bu bizim torpaqlarımızı azad etmək yolunda son müharibəmiz olacaq? Qələbə gozlənilən idimi?

Xalq artisti, professor Mənsum İbrahimov bizimlə söhbətində bildirdi ki, o gün heç zaman yaddaşından silinməyəcək, çünki bizi Zəfərə aparan o gün çoxdan gözlənilirdi. "27 sentyabr yaddan çıxası bir tarix deyil. Biz bu günü 30 il gözləmişdik. Həmin gün Ali Baş Komandan əks-hücum əmri verdi, hamımız sevindik və torpaqlarımızın azad ediləcəyinə ürəkdən inandıq. Təbii, heç kəs müharibəyə sevinmir, amma biz 30 ildir bu əmri gözləyirdik ki, torpaqlarımızı azad edək. Şükür ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımız 44 gün ərzində işğaldan azad edildi. Bu bizim üçün qürur və fəxr hissidir. Bu tarixdən 2 il keçib, biz torpaqlarımıza qovuşmuşuq".

M.İbrahimov hesab edir ki, hazırda sülhməramlıların nəzarəti altında olan ərazilərimiz də Azərbaycanın yurisdiksiyasına qayıdacaq və biz buna doğru gedirik. Xalq artisti qeyd etdi ki, Ermənistana arxa-dayaq olan dövlətlər, onların havadarları torpaqlarımızın işğaldan azad edilməsi faktı ilə barışmır və bu ölkəni yenidən təxribata sürükləyir. Xalq artisti bildirdi ki, ordumuz ayıq-sayıq dayanıb və düşmən təxribatının qarşısını alıb mübarizəmizi uğurla başa çatdıracağıq. M.İbrahimov qeyd etdi ki, biz haqlı ola-ala bizi bəzi Qərb, Avropa ölkələri haqsız çıxarmağa çalışıb. "Bu gün haqq-ədalət yoxdur, hər şeyi güc həll edir. Biz 30 il sülh gözlədik ki, torpaqlarımızı sülh yolu ilə azad edək, amma olmadı. Şükür Allaha ki, torpaqlarımız azad edildi..."

Şair, nasir, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Meyxoş Abdullah "Bakı-Xəbər"ə bildirdi ki, o günü düz 30 il idi gözləyirdik və nəhayət yetişdi. Xalqın yumruq kimi birləşib düşmən üzərinə gedən müzəffər Ordumuza dəstək verdiyini deyən M.Abdullah 27 sentyabr 2020-ci il tarixinin unudulmaz olduğunu dedi: "O gün ömrümdə heç vaxt unutmayacağım bir gün idi. Televiziyanın xəbərlər proqramından müharibənin başlandığını və qoşunlarımızın cəbhə boyu əks-hücuma keçdiyini eşitdim. Təsəvvür edin ki, çox böyük qürur hissi keçirdim. Axı, biz bu döyüş anını çoxdan gözləyirdik. Təkrar edirəm, biz bu döyüşü çoxdan gözləyirdik. Xalq artıq cana doymuşdu, səbr kasası daşmaq üzrəydi. Mənə gəlincə, mən hələ 2009-cu ildə yazdığım "Əsir qadın" əsərimin epiqrafında belə yazmışdım: - "Ey soydaşım, ey həmvətənim!..Bizi qarşıda ağır, ağır olduğu qədər də şərəfli bir döyüş gözləyir. Yalnız bu döyüş alnımıza vurulan xəcalət damğasını, vicdanımızın ləkəsini silib təmizləyı bilər!.. Öldürsək, namusumuzu, öləriksə, özümüzü gələcək nəsillərin qınağından xilas edə bilərik!.." Qələbəmizə çox inanırdım. Çünki 30 illik səbrimizin artıq çat verdiyini hamı hiss edir və görürdü. Xalq qələbə arzusuyla yaşayırdı... Hər şeyin bir sonu olduğu kimi, bu 30 illik məğlubiyyətin də bir sonu olacaqdı. Sadəcə olaraq, xalq dövlətdən bir hərəkət gözləyirdi. Bu da baş verdi. Mənə gəlincə, mən bu xalqın saflığına, döyüşkənliyinə, yenilməzliyinə həmişə inanmışam".

Respublika Xatirə Kitabı redaksiyasının Baş redaktoru, AYB üzvü, tanınmış şairə Nəzakət Məmmədova da bizimlə söhbətində bildirdi ki, 27 sentyabr bizi Zəfərə, qələbəyə aparıb, Zəfər yürüşünün başlanğıc nöqtəsi olub. "Doğrudan da müharibənin başlandığı günü unutmaq mümkün deyil. Təbii, heç bir xalq müharibə istəmir. Amma biz 27 sentyabrda Azərbaycan ordusunun əks-hücum əməliyyatlarına başlamasına sevindik. Xalq olaraq sevindik. Mən də sevindim ki, nəhayət müharibə başladı və indiyə qədər çəkdiyimiz ağrıacıya son qoyulacaq, torpaqlarımız azad olunacaq. 27 sentyabrda ilk düşündüyüm məsələ torpaqalımızın tezliklə azad olunması olub. Mənim övladlarım da zabitdir, onlar da cəbhədə döyüşdə idilər. Qızım həkim kimi xidmət edirdi. Buna baxmayaraq, müharibənin dayanmasını istəmirdim, deyirdim ki, bütün torpaqlarımız alınsın. 2020-ci il sentybarın 27-si günündən inandım ki, bu müharibə Zəfər yürüşüdür və torpaqlarımız işğaldan azad ediləcək. 30 il idi ki, qələbə gözləyirdik və 30 ildə də övladlarımızı bu ruhda böyütmüşdük ki, torpaqlarımızı azad etmək sizin ən böyük vəzifənizdir. Şükürlər olsun ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə üzəffər Ordumuz torpaqlarımızı işğaldan azad etdi. Bu gün biz qələbədən ürəkdolusu danışa bilirik. Amma bilirsiz ki, qonşularımız mənfurdur, onlar öz əsassız iddialarını dayandırmayıblar, hələ də təxribata əl atırlar. Amma müzəffər Ordumuz düşməni yerində oturtmağa hər an hazırdır".

Xalq artisti Afaq Bəşirqızı da bizimlə söhbətində bildirdi ki, xalqımız 27 sentyabrda birlik nümayiş etdirdi: "Hamımız vətənpərvərik və vətənpərvər olmalıyıq da. Biz bu torpaqları tamamilə azad etməyincə, Qarabağın ermənilər yaşayan hissəsində Azərbaycanın hakimiyyətini bərpa etməyincə rahatlaşa bilmərik. Gecə-gündüz çalışmalıyıq. Sadə vətəndaşdan tutmuş bu işin bilavasitə məsuliyyətini daşıyan hər kəs bu yolda bir olmalıdır. Necə ki, cənab Prezident demişdi ki, biz bir yumruq kimi birləşmişik. Gərək bu yumruq kimi birləşmək yaddan çıxmasın. Bu Vətən, bu torpaq bizimdir. Müharibə bizə görə gedib. 27 sentybarda biz nəyin necə olacağını bilmirdik, hazır deyildik. Qəfil Ermənistan müharibəni başladı və hücuma keçdi. Hamımız çaşqın idik. Düzdür, ondan əvvəl Tovuz hadisələri baş vermişdi, müharibə gedirdi, generalımızı, polkovniklərimizi itirdik, şəhidlər verdik. Biz o vaxt Tovuzdan nigaran idik, amma Ermənistan başqa tərəfdən hücuma keçdi. 27 sentyabrda bütün Azərbaycan ayağa qalxdı. Mən özüm özümə həsəd apardım və sevindim ki, azərbaycanlıyam. Xalqımızda bu hiss hər gün olmalıdır".

A.Bəşirqızı bildirdi ki, Birinci Vətən müharibəsində bizim silahımız yox idi, düşmən silahlı idi, 27 sentyabrda isə bizim ordumuzun gücünü dost da, düşmən də gördü. O qeyd etdi ki, 27 sentyabr bizi Zəfərə apardı, bu yolda şəhidlərimiz də, qazilərimiz də var, amma xalq olaraq başımız ucadır.

*İradə SARIYEVA*



***Mənsum İbrahimov:*** *"Həmin gün Ali Baş Komandan əks-hücum əmri verdi, hamımız sevindik və torpaqlarımızın azad ediləcəyinə ürəkdən inandıq"*

***Meyxoş Abdullah:*** *"Biz bu döyüşü çoxdan gözləyirdik"*

***Nəzakət Məmmədova:*** *"Biz 27 sentyabrda Azərbaycan ordusunun əks-hücum əməliyyatlarına başlamasına sevindik"*

***Afaq Bəşirqızı:*** *"27 sentyabrda bütün Azərbaycan ayağa qalxdı"*